https://doi.org/10.59849/3006-2403.2023.9.136
UOT 82-1. 512. 162

*Vəsilə Səməd qızı Hüseynova*
*AMEA Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun elmi işçisi*
*Bakı ş., İstiqlaliyyət küç., 26*
*E-mail: vesilehuseynova69@gmail.com*

# NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİNİN ORTA ƏSR SARAYLARI ÜÇÜN HAZIRLANMIŞ NÜSXƏLƏRİNİN PALEOQRAFİK TƏDQİQİ

*Bu tədqiqat işində Səfəvi şahı I Təhmasibin sifarişi əsasında Şah Mahmud Nişapuri tərəfindən köçürülmüş Nizami Gəncəvinin "Xəmsə" əlyazması qısadılmış formada təsvir olunub.Əlyazma 1539-1543-cu illərdə Səfəvi şahı I Təhmasib (1524-1576) üçün hazırlanmışdır. Əlyazma Təbriz miniatür məktəbinin rəssamları tərəfindən bəzədilmişdir. Bu miniatürlər Təbriz rəssamlıq məktəbinin bizə yadigar qalan ən gözəl nüsxələrindəndir.*

*Açar sözlər:* saray kitabxanası, xəttat, miniatür, nəstəliq xətt, Səfəvi dövrü

Böyük Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığının ədəbi mənəviyyatımızın inkişafındakı rolu böyükdür. Şairin həyat və yaradıcılığı qədim Gəncə ilə bağlıdır. Orta əsrlərdə tarixi hadisələrin təsiri altında Azərbaycan ədəbiyyatında ərəb və fars dillərində şairlər və sənətkarlar yetişirdi. Bu baxımdan dövrünün ən böyük mütəfəkkiri olan Nizami Gəncəvi irsi həmişə aktual olub.

Nizami Gəncəvinin poetik dühası onun zəngin fars mədəni irsi ilə birləşdirib və bu onun böyük ədəbi nailiyyətinə səbəb olmuşdur. Nizaminin fars mədəniyyəti öz köklü ənənəsi və əzəməti ilə məşhurdur. O, öz dövrü üçün musiqidə, memarlıqda və gündəlik həyatda, eləcədə yazıda zəngin və dəqiq ifadə vasitələrini yaratmış və inkişaf etdirmişdir. Şairin həyat və yaradıcılığı həmişə xarici işğalçılar tərəfindən zəbt edilmişdir. Nizami siyasi baxımdan qeyri sabit bir dövrdə yaşayırdı. İnsanlarda dərin intellektual gərginlik vardı. Şairin yaradıcılığı onun yüksək insani keyfiyyətlərə malik olduğunun sübutudur. Şair poeziya aləmində bənzəri olmayan bir mütəfəkkirdir. İnsanlara xidmət etmək şairin həyat amalı idi. O, həmişə əsərlərində həyatın şən və gözəl, mənalı olduğunu, insanların məsləklərindən aslı olamayaraq bərabər olduqlarını, din azadlığını xüsusi vuğulayırdı. Nizamini həm şair, həm də böyük filosof adlandırmaq olar. Şairin əsərləri dərin məna kəsb etməsi baxımından öz dövrünün cəmiyyəti üçün birmənalı qarşılanmırdı. Orta əslərdə saray hökmdarları üçün şeirlər yazmaq şairlər üçün bir maraq və adətə çevrilmişdir.Bunu həm də cəmiyyətin tələb etdiyi bir məcburiyyət adlandırmaq olar. Şair də öz yaradıcılığında bu xüsusiyyətlərə çox önəm vermişdir. Amma buna baxmayaraq Nizai Gəncəvi saray həyatında yaşamamışdır. Şairin həyat və yaradıcılığı haqqında məlumatlar çox azdır. Yeganə məlumatları isə öz əsərlərindən əldə etmək olar, amma bunları da etibarlı mənbə hesab etmək olmur.

Nizami Gəncəvi ədəbi həyatına böyük lirik şeirlər yazmaqla başlamışdır. Böyük şeirlər toplusu (divan), qəzəl və qəsidələr yazmışdır. Təəssüf ki, onun şeirlərinin çoxu əsrlər boyu qorunub saxlanılmayıb.

Nizami Gəncəvi dünya ədəbiyyatında məsnəvi formada yazdığı "Xəmsə" (Beşlik) adı ilə tanınan beş uzun şeirlər toplusu ilə məşhurdur. Xəmsə İslam dininə xas olan bir amuletdir. Xəmsə "beş" deməkdir və əlin 5 barmağına aiddir. Müsəlmanlar üçün iman, ciddilik, səbr və təmkin rəmzidir.

"Məxzənül-əsrar"(Sirlər Xəzinəsi) adlı poeması şairə böyük şöhrət qazandırmışdır. Orta əsrlərdə Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan 5 poema tam şəkildə Təbrizdə Səfəvilər dövründə Səfəvi Şahı I Təhmasibin sifarişi əsasında hazırlanmışdır. Orta əsrlərdə Təbriz şəhərində elm və mədəniyyət mərkəzləri, kitabxanalar, rəssamlıq emalatxanaları yaradılmışdır. Kitabxanalara müxtəlif ölkələrdən xəttatlar, rəssamlar, kitab sənət ustaları cəlb olunurdu.

I Şah Təhmasibin sifarişi əsasında hazırlanmış əlyazma Şah Mahmud Nişapuri tərəfindən köçürülmüşdür (1539-1543). Həmin nüsxə Britaniya kitabxanasında saxlanılır [4]. Əlyazma 369 səhifədən ibarətdir. Əlyazma 14 miniatürlə bəzədilmişdir. Əlyazma Təbriz miniatür məktəbinin rəssamları Sultan Məhəmməd, Ağa Mirək, Mir Musavvir, Mirzə Əli, Müzəffər Əli kimi sənətkarlar tərəfindən bəzədilmişdir. XVII əlyazmaya 3 miniatür əlavə edilmişdir. Bu miniatürlər Məhəmməd Zaman tərəfindən çəkilmişdir. Rəssamların işləri bir-birindən dekorativ kompozisiyasına, rəng koloritinə, insan, heyvan və bitki təsvirlərinə görə fərqlənir. Əlyazma zəngin ornametlərlə bəzədilib. Cilallanmış fil sümüyü rəngində çalarlı kağızda yazılıb. Əlyazma hər iki tərəfdən nəstəliq xətti ilə köçürülüb. Əlyazmanın boş hissələrində bitki və heyvan fiqurları qızılla bəzədilmişdir. Əlyazmada xəttat və rəssamların işi bir-birini çox ustalıqla möhtəşəm bir hala gətirmişdir. Nəstəliq xətlə yazılmış əlyazmanı çox asanlıqla oxumaq mümkündür. Oxuduğumuz misralara əsaslanaraq miniatürdəki kompozosiyanı asanlıqla təsvir etmək olur. Əlyazmada hər miniatür üçün ayrıca səhifə ayrılmışdır. Hər bir miniatür ayrı bir sənət əsərinə çevrilmişdir.

Əlyazmanın bütün səhifələrində bitki və heyvan təsvirlərinin verilməsi və bu təsvirlərin qızılla işlənməsi ona əsas verir ki, bu təsvirlər Mirzə Əlinin əl işləridir. Müxtəlif rəng çalarları, bitki və heyvanların təsvirləri, verilmiş personajların geyimləri, baş örtükləri, dekorativ kompozisiyalar, rəngarəng çiçəklər, dağlar, qayalıqlar, axan çaylar, mavi səma miniatürçülərin yüksək ustalıqlarını əks etdirir.

Qeyd etdiyimiz kimi 17 miniatürdən 14-ü əlyazma ilə eyni vaxtda yaradılmışdır. Sonradan əlavə olunan 3 miniatür Məhəmməd Zaman tərəfindən çəkilmişdir. Bu 3 miniatür tamam başqa üslubda çəkilmişdir. Həmin 3 miniatürdə "Yeddi gözəl"poemasından olan "çiynində öküz tutmuş Fitnənin pilləkənlə qalxması", "Bəhram Gurun əjdahanı öldürməsi", "Bəhram Gurun şahzadə ilə şam yeməyi" səhnələri təsvir edilib. Bu 3 miniatür öz üslubuna görə Avropa rəssamlığına daha yaxındır [4].

14 miniatür ayrı-ayrı rəssamlar tərəfindən çəkilmişdir. Amma buradakı detallar, incəliklər, rəng çalarlarının ustalıqla bir-birini əvəz etməsi sanki miniatürün bir rəssam tərəfindən çəkilməsi fikrini yaradır. Bu da ona əsas verir ki, miniatürlər Təbriz məktəbinə aiddir və eyni rəssam rəhbərliyi altında bir emalatxanada işlənmişdir.

Görkəmli tədqiqatçı alim Arif Qazıyevin tərtib etdiyi kitabda Nizami "Xəmsə"sinə daxil olan əsərlərinin miniatürlər əsasında geniş şəkildə təsviri verilmişdir [1]. Biz həmin təsvirləri aşağıdakı şəkildə verməyə çalışmışıq.

"Sirlər Xəzinəsi" poemasından "Nuşirəvan və bayquşların söhbəti", "İki rəqib alimin hekayəti", "Xosrov və Şirin" poemasına çəkilmiş miniatür. "Şapurun Xosrovun yanına qayıtması" poemada Şapurun Xosrovda şəkil vasitəsilə Şirinə qarşı eşq yaratması, "Xosrovun taxta çıxması", Xosrov və Şirinin xidmətçilərin nağıllarını dinləməsi, "Məcnunun heyvanlar arasında çəkilmiş miniatürlər rəssam Ağa Mirəkin fırçasından yaranmışdır.

"Nuşirəvan və bayquşların söhbəti" hekayəsinin böyük tərbiyəvi əhəmiyyəti var. Miniatürün mərkəzində at belində oturmuş Nuşirəvan və onun vəziri təsvir olunur. Şah öz vəziri ilə xarabalığın yanından keçərkən iki bayquşun söhbətini eşidir. Nuşirəvan üzü saqqalı, yay və oxla yaraqlanmış və qırmızı atın belində oturub. Şahın arxasından gələn vəzir bozumtul-sarı qatırın üstündədir. Tərk edilmiş xarabalığın yüksək hissəsində leylək balaları üçün yuva qurub, digər iki leylək havada uçuşurlar. Uçan leyləyin biri öldürülən ilanı

yuvasındakı balalarına aparır. Sarayın qalıqları və daxili hissəsi rəngli üzlüklü materiallarla çəkilmişdir. Həyətdə vəhşi heyvanlar, ürkək ceyranlar otlayır və xarabalıqdan bir it atlara hürür. Personajların geyimləri çox parlaq rənglərlə verilmişdir. Saray xarabalıqlarının bəzi divarları açıq olduğu yerdən içəridə kərpic işlərini görmək olur. Flora və faunanın əsl görüntüsünü rəngarəng çalarlarla Təbriz miniatür məktəbini xarakterizə edir [1,78].

"İki rəqib alimin hekayəti" mövzusuna çəkilmiş miniatürdə əsasən rəqib olan Esxil və Evripid və onları izləyən saray əhli təsvir olunub. Bu miniatürdə təbiətin poetik gözəlliyinə daha çox diqqət yetirilir. Hekayədə keçirilən məclis açıq havada göstərilir. Rəqiblər ön planda təsvir olunub [1,81].

"Xosrov və Şirin" poemasına çəkilmiş miniatürlərdə saray həyatının dəbdəbəsi və izdihamı böyük ustalıqla təsvir edilmişdir. Miniatürdə gənc şahzadə Xosrovun ətrafında saray əyanları, musiqiçilər üçün qurulmuş çadırlar, qulluqçular, qiymətli farfor qablarda qonaqlaq üçün müxtəlif meyvələr, içki qabını məcburiyyətlə dolduran saqi, təbiət qoynunda qurulan ziyafət bütün detalları ilə verilib. Xosrov və Şirinin görüşü üçün qurulmuş kef məclisində çox gözəl kompozisiya var. Müxtəlf pozalı fiqurlar, tağ, hovuz, durna qatarı və bütün bunlar miniatürün monumentallığını daha da artırır [1,85].

"Leyli və Məcnun" poemasına çəkilmiş Məcnun heyvanlar arasında miniatrüründə zəngin rəng kolariti ilə seçilir. Bu miniatür lirik səpkidədir. Nakam sevgi yaşayan Məcnun və tozağacının kölgəsinə qərq olunmuş mənzərə bir-birilə təzad təşkil edir [1,195].

"Sirlər Xəzinəsi" poemasından "Sultan Səncər və yaşlı qarı", "Xosrov və Şirin" poemasına çəkilmiş "Xosrovun çimən Şirini görməsi", "Yeddi Gözəl" poemasına çəkilmiş "Məhəmməd Peyğəmbərin meracı" və "Bəhram Gurun şir ovu" miniatürləri rəssam Sultan Məhəmmədə aiddir. Miniatürün mərkəzində at belində oturmuş sultan, onun çətirdaşıyanı və yaşlı qarı təsvir edilib. Növbəti miniatürdə çayda çimən Şirini görən Xosrov təsvir edilib. Təbiətin lirikası, personajların daxili yaşantılarının canlı şəkildə çatdırıldığı kompozisiyada rəssamın şərhini nəzərdən keçirə bilərik.

"Yeddi gözəl" poemasına çəkilmiş miniatürdə Məhəmməd Peyğəmbərin göyə qalxması təsvir olunur. Orta əsr divan ənənəsinə uyğun olaraq Nizami Gəncəvi poemalarına girişi dini məzmunla başlamışdır. Miniatürdə ulduzlu bir gecə təsvir olunur. Peyğəmbər dünya nemətləri ilə vidalaşıb, insan başı olan qanadlı bir atın-Buraqın belində göyün yeddinci qatına qalxır.

Rəssam Mirzə Əli tərəfindən çəkilmiş miniatürlər isə bunlardır: "Xosrov və Şirin poemasına çəkilmiş "Şapurun Xosrovun rəsmini Şirinə göstərməsi", "Xosrov və Şirin" poemasına çəkilmiş "Xosrovun Barbedin musiqisini dinləməsi" miniatürlərdir. Mirzə Əli tərəfindən çəkilmiş hər iki təsvir üslubuna görə başqa illüstrasiyalardan fərqlənir. Onlardan birində rəssam Şapurun Şirinə Xosrovun portretini göstərməsi, Şirində təəssürat yarada bilməsi, rəssamın fırçasına sərbəstlik gətirmişdir. Rəssam Səfəvi saray mühitini səciyyələndirən xüsusiyyətləri təsvir etmişdir. Şirindən ayrılıq həsrətində olan Şahzadə Xosrov öz yoldaşları və qulluqçularının əhatəsində məşhur saray musiqiçisi və müğənnisi Barbedinə qulaq asır. İfaçının sənəti hamını valeh edir. Məkan özü şah sarayının bağını əks etdirsə də, onun yanında sadə bir evin göstərilməsi və bir çox motivlər Nizami yaradıcılığında sadə insanların həyatını, onu əhatə edən təbiətin bütün təfərrüatları ilə yaratması ustadın realistliyindən xəbər verir.

"Yeddi Gözəl" poemasına çəkilmiş "Bəhram Gur və Fitnənin ova çıxması"-rəssam Müzəffər Əli tərəfindən, "Leyli və Məcnun" poemasına çəkilmiş "Məcnun Leylinin çadırı qarşısında" miniatürü rəssam Mir Seyid Əli tərəfindən çəkilmişdir. Bu siyahıda rəssam Müzəffər-Əlinin yeganə miniatürü Bəhramın vəhşi eşşək ovuna çıxması təsvir olunur. Çöl və dağlar gül-çiçəklə, iri çinarla zənginləşdirilib, pesonajlar fərqli pozalarda təsvir olunub.

Mir Seyid Əli fırçasından yaranan Məcnun ön planda yarıçılpaq, ayaqyalın, arıq fiquru ilə işıqlı mühitdə diqqəti daha çox cəlb edir. Zəngin pərdələr və dekorativ bəzəklərlə bəzədilmiş ağ çadırlar miniatürdə kəndin köçəri həyatının müxtəlif aspektlərlə əks etdirir.

XVII əsrdə bu əlyazmaya 3 əlavə miniatür çəkilmişdir. “Yeddi Gözəl” poemasına çəkilmiş “Bəhram Gurun əjdahanı öldürməsi”, “Fitnənin öküzü qaldırması”, “Hindistan gözəlinin hekayəsi” rəssam Məhəmməd Zaman tərəfindən çəkilmiş miniatürlərdir. Məhəmməd Zaman tərəfindən çəkilmiş rəsmlərdə şərq miniatürlərinə xas olan kompozisiyanın ənənə sistemi dəyişdirilmişdir.

Əlyazmanı tədqiq etmiş A. Qaziyev qeyd edir ki, ”XVI əsr Təbriz miniatür məktəbinin yetirmələri olan bu beş rəssamın əlyazmasında yer almış əsərləri mühüm tarixi-bədii əhəmiyyət kəsb edir. Milli irsin orijinal nümunələri kimi, bu miniatürlər bədii sənət nümunəsi olmaqla yanaşı etnoqraflar üçün də mühüm tədqiqat mənbəyidir.”

ƏDƏBİYYAT

1. А.Ю.Казиев” Художественное оформление Азербайджанской рукописной книги XШ-XVII веков.Москва.1977.Издательство “Книга”
2. А.Ю.Казиев. Миниатюры рукописи “Хамсэ” Низами 1539-1543. Баку-1964
3. Chelkowski, Peter J. “ Mirror of the İnvisible World”. New York: Metropolitan Museum of Art.1975 səh 117.
4. I Şah Təhmasibin Xəmsə Əlyazması, Britaniya Kitabxanası, Or. 2265.

УДК 82-1. 512. 162

*В.Ш.Гусейнова*
*Институт рукописей НАНА имени Мухаммада Физули*
*Исследователь*

ПОЛИГРАФИЧЕСКОЕ ИЗУЧЕНИЕ КОПИЙ ПРОИЗВЕДЕНИЙ НИЗАМИ ГЯНДЖЕВИ, СДЕЛАННЫЕ ДЛЯ СРЕДНЕВЕКОВЫХ ДВОРЦОВ
*РЕЗЮМЕ*

*Ключевые слова:* дворцовая библиотека, каллиграф, миниатюрный, насталиг, Сефевидский период

В данном исследовании в сокращенном виде описывается рукопись Низами Гянджеви “Хамса”, переписанная Шахом Махмудом Нишапури по приказу Сефеви Шаха I Тахмасиба. Рукопись выполнена для сефевидского шаха Тахмасиба I (1524-1576) в 1539-1543 гг., оформлена художниками тебризской школы миниатюры. Эти миниатюры являются одними из самых красивых копий тебризской школы живописи.

UDC 82-1. 512. *162*

*V.Sh.Huseynova*
*ANAS Institute of Manuscripts named after Muhammad Fuzuli*
*Junior Researcher*

# NIZAMI GANJAVI POLYGRAPHIC WORKS EXAMINATION OF PREPARED COPIES FOR MEDIEVAL PALACES

*SUMMARY*

*Key words:* palace library, calliqrapher, miniature, nastaliq, Safavid period

In this research work, Nizami Ganjav’s “Khamsa” manuscript copied by Shah Mahmud Nishapuri on the order of Safavi Shah Tahmasib I is described in an abbreviated form. The manuscript was made for the Safavid Shah Tahmasib I (1524-1576) in 1539-1543. The manuscript was decorated by artists of the Tabriz school of miniatures. These miniatures are among the most beautiful copies of the Tabriz school of painting.

***Daxil oldu: 25.10.2023-cü il***